# YURD AĞRILARINDAN YURD VÜSALINA...



*Tariyel ABBASLI,*
*filologiya üzrə fəlsəfə doktoru*

***O yerlərin bitmək bilmir həsrəti,***
***Neçə ildir dağ-daş bizi gözləyir.***
***Qartal kimi sevən varmı dağları,***
***O dağlara yoldaş bizi gözləyir.***

Bu misralar tanınmış şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü Malik Əhmədoğlunun "Həsrətimin sonu gəlmir" kitabındandır. Malık Əhmədoğlu ilə tanışlığımın və yaxınlığımın bir 20 ilə qədər tarixi var,amma onun məni tanımasının tarıxı özünün dediyi kimi 35-40 ildən çoxdur. Mənimsə bu dəyərli şairimizlə yaxınlığımın əsas təməli məhz "Dirili Qurbani" məclısində qoyulmuşdur. Yaradılmasının 18 illiyinə hazırlaşdığımız "Qurbani məclisi" ədəbiyyatımıza və poeziyamıza bir çox dəyərli söz adamları bəxş edib. Onlardan biri də haqqında söhbət açacağım Malik Əhmədoğludur.1968-ci ildə Cəbrayıl rayonunun Dağtumas kəndində anadan olub.Mənim ilk gənclik illərim və əmək fəaliyyətim Dağtumas kəndi və sovetliyi (o zamankı ifadə ilə) ilə bağlı olduğuna görə bu yerləri çox yaxşı tanıyıram. Malikin doğulduğu kənd Tumas dağının ətəyində meşəliklərlə əhatə olunmuş iki dağ sinəsinin arasında,yamaclarından diş göynədən təbii bulaqlar qaynayan gözəl,unudulmaq bilməyən havası olan bir məkan idi. Şübhəsiz ki, belə bir təbii gözəlliyə malik,ekoloji baxımdan çox əhəmiyyətli olan bir yerdə bəlkə də şair olmamaq mümkün deyil:

*Səhərin küləyi könül oxşayır,*
*Paylayır ətrafa zümzüməsini.*
*Təbiət çıçəyin,gülün üstündə,*
*Gəzdirir sevgiylə xoş nəfəsini.*

Malik müəllim uzun müddətdir-yarandığı gündən "Qurbani məclisinin "üzvü və təşkilati işlər üzrə rəjbərlərindən biridir. Bütün bu illər ərzində o özünü həm bir vətənpərvər şair-publisist,həm də təşkilatçı kimi göstərə bilmişdir. Onun "Ölməyə qoymayın ümidlərimi", "Bir də baxacaqmı gözüm dağlara", "Sevincim qəmim vətən", "Söz gərək deyilsin öz zamanında", şeirlər, "İtirilmiş ömür"- hekayələr və "Dağtumas şəhidləri" bədii-publisistik kitablarının yalnız bir qayəsi, bir mövzusu var: vətən, ana torpaq, yurd ağrıları, torpaq və şəhid itkiləri və bundan qaynaqlanan ağrı-acılar, bütün bu vətənpərvərlik duyğuları vətən sevdalısı M.Əhmədoğlunun yaradıcılığından qırmızı xətt kimi keçir.

Poeziyanın əzəli və əbədi bir neçə mövzusu var ki, bu bütün şairlərin yaradıcılığında özünü göstərir: Bu vətən və sevgi mövzusudur.

M.Əhmədoğlunun vətən sevdalı şeirləri onun dərdli-yaralı ürəyinin qəlbgöynədən duyğularıdır. Demək olar ki, biz hər gün onun adını çəkdiyimiz kitablarında, həm də sosial-şəbəkələrdə onun vətən sevgisinə köklənmiş şeirlərini oxuyuruq. 2020-ci il sentyabrın 27-sindən və noyabrın 10-na qədər olan şeirlərdə ab-hava başqa, bu müddətdən yəni 44 günlük müharibədən sonrakı günlərdə yazılan şeirlərin ruhu bir başqa olsa da, bunların ümumi məcmusu vətənə, torpağa, eləobaya məhəbbətidir:

*Yenə kədərliyəm qınaman məni,*
*Bu halı bəxş edən elin dərdidir,*
*Vətəndən uzaqda bələnib qəmə*
*Durmadan ağaran telin dərdidir*

*Malik, gözlərində yurd salıb qubar,*
*Hər dərddən eylədin həyatda nübar*
*Od olub dünyanı yaxmağa nə var*
*Gözümdən getməyən külün dərdidir.*

Yaxud digər bir şeirdə:

*O yerlərə yetmir əlim*
*Vətən səndən aralıyam.*
*Yolum yoxdur durum gəlim,*
*Vətən səndən aralıyam.*

Vətən müharibəsindən sonra yazılan şeirlərin isə mövzusu bir olsa da təbii olaraq onların ruhu bam-başqadır. İgid Azərbaycan əsgərinin, dünyaya səs salan Azərbaycan Milli Ordusunun və müzəffər Ali Baş Komandanmızın artıq zərbi-məsələ çevrilmiş "Qarabağ Azərbaycandır " ifadəsinin könülləri oxşayan xoş ovqatından sonra şeirlərin məzmununda bir yenilik, təzəlik, yüksək əhval-ruhiyyə özünü göstərir:

*Gəlmişəm dağlara söhbət etməyə,*
*Cox sayda deməyə sözüm var mənim.*
*Qaya kölgəsində illərlə qalan,*
*Alışmaq istəyən közüm var mənim.*

*Ömür başa catır dərd hədəfində,*
*Unudub ziyanın daha nəfində,*
*Uzanan çöllərin hər tərəfində,*
*Ünvanı axtaran izim var mənim.*

Bəli, şair o qayaların, düzlərin, şır-şır bulaqların,büllur kəhrizlərin hər birində hər birimizin izimiz,nəfəsimiz var,illərdir o iz, o nəfəs bizi gözləyir. Bir az da dözüm olsa hər şey düzələcək:

*Malikəm, taleyin verdiyi dərdim,*
*Üst-üstə yığıldı çox sayda dərdim*
*Bu qədər dərdimdən çoxdan ölərdim.*
*Nə yaxşı canımda dözüm var mənim.*
*Bəli, bizi yaşadan elə o dözümdür.*

O dözüm də vətən sevgisindən gəlir, heç vaxt ona asi cıxmırıq. Amma hələ ki, qayıtmamağımızın səbəbləri var:

*Hər qarışın əzizdir,*
*Hər anına qurbanam*
*Qaytar qoynuna daha,*
*Qoyma həsrətdən yanam.*

*Baxdıqca baxmaq istər,*
*Gözüm bu gözəlliyə.*
*Amma baxa bilmirəm*
*Bir deyən yoxdur niyə?*

M.Əhmədoğlunun adını cəkdiyim kitablarını vərəqləsək orada yüzlərlə vətən, torpaq Cəbrayıl, Qarabağ həsrətli şeirlərə rast gələrik. Bu şeirlərin hər biri müəyyən bir hadisə, yaddaşa gələn düşüncə və ağrı-acılardan qaynaqlanmış şeirlərdir. Hələ neçə il öncə yazdığı "Cəbrayıl " şeirinin misralarına nəzər salaq:

*Yenə yaraların qopdu qaysağı,*
*İçimi yandırdı közüm, Cəbrayıl*
*Kədərdən, qüssədən qopa bilmirəm,*
*Sevincin itirib sözüm, Cəbrayıl.*

*Malik necə dözsün bu həsrətinə,*
*Son qoydu ayrılıq səadətinə,*
*Bir gün layiq olub məhəbbətinə,*
*Sarılım boynuna özüm, Cəbrayıl.*

Yenə də illər öncə yazdığı bir neçə Qarabağ ünvanlı şeirlərindən birinə baxaq:

*Bir vaxt sevinərdi, bir vaxt gülərdi*
*İndisə aglayan gözdür Qarabağ*
*Həzm edə bilməyir bu qədər dərdi,*
*Dillərdə ən acı sözdü Qarabağ*

*Malik, bu dərdlərə dözmək çətindi,*
*Sınmayan qamətlər bu dərddən sındı.*
*Zəfər tonqalıdır həsrəti indi*
*Bir nəfəs gözləyən közdü Qarabağ.*

Əgər fikir verirsinizsə,mən hər bir şeir haqqında danışarkən onun sonuncu bəndlərini də təqdim edirəm. Yəni bu şeirlərin hər birində şair torpağa, eləobaya- vətənə dönəcəklərini xüsusilə vurğulayır və buna böyük inamla özünü də oxucusunu da inandırır. Və inandıq, hamımız inandıq ki, artıq bizim Qarabağımız zəfər soraqlı oğullarımızın qəhrəmanlığı ilə geri qaytarıldı.



Poeziyamızda ən çox önəmli yer tutan poetik mövzulardan biri də "Dağlardır" elə bir şair tapa bilmərik ki, o öz yaradıcılığında dağlara xitab etməsin. Bunun ən başlıca səbəbi isə aydındır: Dağlar dolayısı və elə birbaşa yolla vətənin rəmzidir. Sən dağları vəsf edirsənsə, deməli vətəni tərənnüm edirsən. Malik müəllimin dağlara həsr etdiyi şeirləri də birbaşa vətənə həsr olunmuş şeirlərdir, sadəcə olaraq burada söz, ifadə, müraciət dağlara unvanlanır.

*Eldən ayrı soldu ömrüm,*
*Ağla məni ağla dağlar.*
*Tənhalaşan bu ruhumu,*
*Vüqarına bağla dağlar.*

Yaxud başqa bir şeirdə:

*Tənhalıq görməsin kimsə dünyada,*
*Bu ağrı evini yıxdı dağların,*
*Elini itirib yalqızlıq görmək,*
*İllərlə qəlbini sıxdı dağların.*

Bir az öncə qeyd etdiyim kimi dağlar təbiətin insanlara bəxş etdiyi ən gözəl və əvəzsiz bir nemətdir. Dağ havası sağlamlıq və gözəllikdir. M.Əhmədoğlunun şeirlərində təbiətin bu ecazkar gözəlliyi, xüsusilə onun doğulduğu bölgənin al səhərləri, işıqlı gündüzləri, güllü-çiçəkli çölləri, al-əlvan tarlaları böyük məhəbbətlə tərənnüm edilir. İnanırıq ki, M.Əhmədoğlu tezliklə gözəl Qarabağımızın bənzərsiz gözəlliyə malik DağTumas dağlarını və meşələrini öz bədii poetik lövhələri ilə vəsf edəcək, yeni-yeni əsərlərini yaradacaq.

Qarabağ münaqişəsini mənfur düşmənlərimizin amansız Qarabağ müharibəsinə çevirdikləri Qarabağ savaşı Azərbaycanın bütün ailələrinə müxtəlif dərəcəli itkilər,dağıntılar ,fəlakətlər gətirdi.Bu müsibət Malikin də ailəsindən yan keçmədi. I Qarabağ savaşında qardaşı Zöhrab Məmmədov Cəbrayıl uğrundakı döyüşlərdə qəhrəmanlıqla şəhid oldu. Üstəlik Malik müəllimin 20-yə yaxın qohum-əqrəbası bu döyüşlərdə şəhid oldu,itgin və girov düşdü. Bütün bunlarla bağlı onun "Dağtumas səhidləri" publisistik kitabında geniş məlumat verilsə də,onun poeziyasının əsas mövzularından biri də elə şəhid şeirləri,şəhid ağrıları,Xocalı,Şuşa faciələri ilə bağlıdır:

*Düşmənin önündən dönmədi geri,*
*Sonadək meydanda durdu şəhidlər,*
*Döyüş dəftərinə öz möhürünü,*
*Qanıyla canıyla yazdı şəhidlər.*

Vətənin alınmaz qalasına çevrilən igid döyüşçülər, şəhidlər haqqında nə qədər əsərlər şeir və poemalar, musiqi əsərləri yazılsa yenə də azdır. Çünki onlar bu döyüşlərə gedərkən ölümü canla-başla qəbul edib getmişdilər. O cümlədən M.Əhmədoğlu qardaşı Zöhraba həsr etdiyi şeirdə yazır:

*Şəhidlik yolunu seçdin əbədi*
*Qoynuna baş qoydun ana torpağın*
*Bağlamaq olmadı yaralarını,*
*Bələndi bir anda qana torpağın.*

Onun digər bir şeiri "Anam necə ağlamasın" adlanır. Burada şair öz anasının timsalında bütün anaların dərdinə yanır onlara sanki təsəlli olur, onları əzizləyir.

*Ürəyində bala dağı,*
*Anam necə ağlamasın*
*Görə bilmir o torpağı,*
*Anam necə ağlamasın*

*O məzarla tək qalmırsa,*
*Bir an təsəlli almırsa,*
*O yerlərdə qocalmırsa,*
*Anam necə ağlamasın?*

*Malik dözmək olmur dərdə,*
*Tükənibdir səbirlər də,*
*Yetim qalıb qəbirlər də,*
*Anam necə ağlamasın!*

M.Əhmədoğlunun vətənpərvərlik şeirləri içərisində Xocalı faciəsinə həsr olunmuş bir neçə şeir vardır. Bu şeirlərin hər birində müəllifin vətən yanğısı, günahsız insanların başına gətirilən amansız və heç bir insanlıq qanunlarına sığmayan əməllərini təsvir etdiyi göstərilir.

*Cəsədlər yan-yanadır,*
*Bu dərd bizi sınadı,*
*Baxdım ürək qanadı,*
*Qədərinə Xocalı!*

*Yolu yağı bağladı,*
*Ürəkləri dağladı,*
*Azərbaycan ağladı,*
*Xəbərinə Xocalı!*

Və gün gələcək qisasını alacağıq Xocalı - deyir:

*Qisasını alarıq,*
*Dünyaya səs salarıq,*
*Bir gün şəhid olarıq*
*Zəfərinə Xocalı!*

Yazımızın əvvəlində söyləmişdik ki, poeziyanın əbədiyaşar mövzulardan biri sevgi şeirlərdir. İnsanı yaradan da, yaşadan da onu ən xoş əməllərə səsləyən və aparan da sevgidir, məhəbbətdir. Hər bir şair poeziya kəhkəşanında özünün sevgi yolunu da tapır. İnsanı ucaldan da, qocaldan da məhəbbətdir. Bu işlənmiş ifadələr olsa da həqiqətdir. M.Əhmədoğlunun yaradıcılığı içərisində yüzlərlə sevgi-məhəbbət şeirləri var.

***(Davamı 14-cü səhifədə)***

# YURD AĞRILARINDAN YURD VÜSALINA...

*(Əvvəli 10-cu səhifədə)*

Malik Əhmədoğlu burada sevgilisini gah dağlar qoynunda, qaynar bulaqların gözündə ,allı-güllü yaylaqlarda, lalələrin, nərgizlərin əhatəsində tərənnüm edir:

*Malik, məhəbbətə bələ ömrünü,*
*Sevgisiz keçməsin ömrün bir günü*
*İstəməz sahildə görə özünü,*
*Sevgi dənizində üzən ürəklər.*

Sevgi şeirlərini yazmaq üçün gərək o sevgini yaşayasan, onun ağrısını, acısını, əzab əziyyətini görəsən. Doğrudan da sevgi həsrətdi, vüsaldı, hicrandı, ayrılıqdan doğan nisgildi. M.Əhmədoğlu bütün bu ağrı acıları da, sevgi duyğularını da ictimailəşdirir nəticədə bu bir şəxsin ağrı-acısı yox geniş mənada sevginin yaratdığı hissləri dilə gətirib ortaya qoyur:

*Səni itirməyim nə verdi mənə,*
*Qazancım həyatda hicranın oldu*
*Yaddaşa ömürlük həkk olan yenə*
*Gülüm bu dünyada son anın oldu.*

Yaxud başqa bir şeirdə müəllif yazır:

*Hər zaman hicranı günahkar bilib*
*Arzusu gözündə qalan sevgilər*
*Leylisin itirib Məcnuna dönüb*
*Meylini çöllərə salan sevgilər.*

Digər bir şeirində şair sevgiyə bir müqəddəslik gətirir, bilirik ki, Leyli Məcnun sevgisi müqəddəsdir. Bu müqəddəsliyi şair öz sevgisində də görür:

*Sənin gözlərinə baxmaq olmayır,*
*Həsrət dünyasının gözü var orda,*
*Məcnunluq eyləmək düşüb könlümə,*
*Gül üzlü Leylinin özü var orda.*

*Malik, sevgi var əl çatan deyil,*
*Hər sevgi ürəyə bil yatan deyil,*
*Ötəri bir sevgi od tutan deyil,*
*Odlu məhəbbətin közü var orda.*

Beləliklə əsərləri oxucular tərəfindən həmişə sevilən vətənpərvər şair, şeirlərində həmişə humanist duyğu və düşüncələri yaşadan Malik Əhmədoğluya həm də sevgi şairi deyə bilərik, amma tövsiyə edək ki, sevgi yolunda ölməsin, onu yaşatsın, onu yüksəklərə qaldırsın. Sevgi yolunda ölənlər çox olub. İndi istəyirik ki, sevgi insanlara əzab versə də yaşatsın:

*Vəfasız gəl demə səni sevənə,*
*Sevgisi yolunda ölən bəndəyəm,*
*Nəyi var, nəyi yox belə həyatda*
*Sevgi süfrəsində bölən bəndəyəm.*

*Maliki uzaq tut hicrandan uzaq,*
*Sevgi dastanına xoş günlər yazaq*
*Dərdin əsirinə dönsə dil dodaq,*
*Vüsal məqamında gülən bəndəyəm.*

M.Əhmədoğlunun şeirlərinin bədii siqləti, bədii emosional təsir dairəsi də çox qüvvətlidir. "Həsrətimin sonu gəlmir" kitabındakı şeirlərin əksəriyyəti qoşma və gəraylılar, digər ənənəvi şeirlərdir. O cümlədən kitabda poeziyamızda az müraciət olunan bir neçə divani şeir forması da vardır ki, bunlar şairin şeirlərindəki orijinallıqdır. Eyni zamanda şeirlərdə işlədilən bədii təsvir və ifadə vasitələri şeirləri daha oxunaqlı edir və təsirini artırır.

Tanınmış şair-publisist, «Kredo» qəzeti ilə zəngin mənəvi dəyər mühiti yaratmış Əli Rza Xələfli M.Əhmədoğlunun yaradıcılığına həmişə xüsusi diqqət göstərib. Onun sosial şəbəkədə M.Əhmədoğlunun bayatı yaradıcılığı ilə bağlı qeydlərini oxucularımızın nəzərinə çatdırmaq istərdim: *"Azərbaycan ədəbiyyatında bayatı janrının ayrıca yeri var. Həm kütləviliyinə görə, həm də insan təbiətinə uyğun olaraq köklənmə baxımından insan hisslərini, duyğularını xüsusi həssaslınla yerinə, məqamına görə çevik düşüncə ilə çatdırılma baxımından...*

*Birmənalı şəkildə Sarı Aşıq bayatıları ilə çox məşhurdur. Bayatı Azərbaycan mənəvi mühitində o qədər geniş yayılıb ki, xalq mahnılarımızın, müğamlarınımızın da təbiətinə hopub: «Bayatı-Şiraz», «Bayatı-Türk»... muğam adlarında «bayatı» sözü təsadüfi işlənmir.*

*Məlumdur ki, «Qarabağ şikəstəsi» ritmik muğamı bayatılarla müşayiət olunur. Onu da deyim ki, musiqi sədaları altında ifa olunan bayatılar dinləyicinin ruhuna tez sirayət edir. Elə ona görə də şairlər də bir çox hallarda dövrə münasibətlərini elə bayatı janrında qələmə aldıqları bədii lövhələrlə bildirirlər.*

*Son dövrlərdə (XX əsrin ikinci yarısından sonra) Hüseyn Kürdoğlunun da bayatıları məşhurdur. Daha çox real vəziyyəti, mühiti ifadə etmək baxımından bu bayatıların rolu əvəzsizdir.*

*Mən özüm də ayrı-ayrı vaxtlarda bayatı janrına müraciət etmişəm. Bayatılarımın əksəriyyəti «Bir bayatı çağırdım...» kitabında toplanıb.*

*M.Əhmədoğlu da zamanın axarında həyatla nəfəs alan bir sənətkar kimi bayatıları ilə oxucularının qəlbini fəth edib. Onu da deyim ki, M.Əhmədoğlunun bayatıları yalnız onun fərdi hisslərini ifadə etmir, həm də dərin ictimai kədərin ifadəsi baxımından çox dəyərlidir bu bayatılar:*

*Araz, suyun lilləndi,*
*Sönən ocaq külləndi.*
*Dərdini demək üçün*
*Lal daşlar da dilləndi.*

*Məlumdur ki, Azərbaycanın tarixi taleyindəki böyük bölünmə ilə bağlı faciənin sonsuz ağrı-acısı iki əsrdən çoxdur ki, şairlərimizin, söz adamlarımızın yaradıcılığında ağrılı bir mövzu kimi yaşanmaqdadır. Malik də Araza müraciət edərək onun suyunun lillənməsi obrazına ictimai məna verir. Yəni hadisələr durulmaq əvəzinə, aydınlaşmaq əvəzinə, həyat həqiqətlərinin öz yerini tapması əvəzinə daha da qarışır. Bir sözlə, zamanın qara buludları dağılmaq əvəzinə bir az da qatılaşır. Mübarizə hissləri, son nəticədə haqqı bərpa etmək ideyası daha da çətinləşir.*

*Qarabağ müharibəsində ordumuzun qələbəsi düşmənlərimizi sevindirmədi. Hətta bədxahlarımız Qarabağımızı işğal edən qüvvələrə zaman-zaman kömək etməkdən də çəkinmədilər. Elə bu səbəbdən mən deyirəm ki, bizim poeziyamız da mübarizə əzmini davam etdirdi. Xalqın böyük kədərinin unudulmaması üçün sözlə mübarizə apardı. Demək, M.Əhmədoğlunun bayatıları da elə ordumuzla birgə düşmənə qarşı vuruşurdu.*

*Məlumdur ki, Malikin məşhur «Həsrətin Bəzz qalası» adlı poeması da var. Bu poemada tarixi ədalətsizliklərin, haqsızlıqların qabarıq təsviri, əslində, şairin ictimai-siyasi mövqeyini ifadə edir. Görünür, Malik epik-lirik lövhələrlə öz məramını nə qədər çatdırsa belə, yenə hiss edir ki, ruhunda, varlığında yaşayan göynəm tam üzə çıxmayıb. Malikin bayatı yaradıcılığında Araz nə qədər fəal obrazdırsa, bir o qədər də Diri dağı qabarıq görünən obrazdır.*



*Kiçik Qafqazın Araza çatan son silsiləsi Diri dağıdır. Bu yer xüsusi tarixi əhəmiyyət kəsb edən abidələr diyarıdır. Görünür, bu səbəbdən də Malik Diri dağı obrazını ümumxalq yaddaşının diqqətinə çəkir:*

*Diri dağ paralandı,*
*Yüz yerdən yaralandı.*
*Zaman kədərli gəldi,*
*Elindən aralandı.*

*Şübhəsiz, bu bayatı yazılanda hələ erməni faşistlərinin işğalı altında olan Qarabağın və eləcə də Dirinin taleyini yazıya gətirməyi Malik özünə borc bilib.*

*Xalq arasında belə bir məsəl var; deyirlər ki, Dağ sənə sarı gəlməsə də, sən dağa sarı get. Elindən ayrı düşmüş, Vətənindən qəsb edilmiş Diriyə doğru yol ordumuzun düşmən üzərinə hücumundan keçdi. Dəmir yumruq öz zərbəsini göstərdi. Malik üçün mənəvi mühitində Azərbaycan birdir, bötövdür. Onun düşüncəsində böyük Azərbaycan var. Elə bu səbəbdən də şair «Həsrətin Bəzz qalası» poemasında böyük Azərbaycan ideyasını qoyur. Yəqin ki, Bəzz qalasının əzəmət obrazını həsrətlə müqayisə etməkdə şair müəyyən qədər haqlıdır. Ancaq o, bir həqiqətə inanır ki, tez-gec həsrətin Bəzz qalası vüsal qalasına çevriləcək. Necə ki, Qarabağ həsrəti Azərbaycan ordusunun gücü ilə vüsala çevrildi:*

*Ürəyim Qarabağdı,*
*Ağ bağdı, qara bağdı.*
*Bu xalqın min dərdi var,*
*Ağırı Qarabağdı.*

*Əgər Azərbaycan xalqı öz ordusunu maddi və mənəvi cəhətdən təmin edib, onu silahlandırıb düşmən üzərinə göndərdisə və bu savaşda Ali Baş Komandanın siyasi iradəsi və qətiyyəti, səriştəli rəhbərliyilə bu savaşdan qalib çıxdısa, demək, gələcəyimizdə Zəngəzur probleminin, Vətəndən qoparılmış hissələrin yenidən Vətənə qaytarılması da reallaşacaq.*

*M.Əhmədoğlunun bayatılarında bir çağırış ruhu var. Bu çağırışlao, Azərbaycan əsgərinin yanında olduğunu, hətta cərgədə lap qabaqda durduğunu da gizlətmir.*

*Qədim Elladada Tirtey adında fiziki imkanları məhdud olan bir şair olub. Rəqib tərəf bunu görüb istehza obyektinə çevirib. Ancaq tezliklə savaş başlayanda Tirtey öz nəğmələrilə öz ordusunu düşmən üzərinə ruhlandırıb. Deyilənə görə, Afina həmin döyüşdə həm də Tirteyin nəğmələrilə qalib gəlib. Bu mənada, M.Əhmədoğlunun da nəğmələri əsgərlərimizi mənəvi cəhətdən silaşlandırmaq baxımından çox dəyərlidir. O. Belə bir çağırışla sanki orduya müraciət edir:*

*Mən aşiqəm yurda get,*
*Yurda qayıt, yurda get.*
*Vətən səni səsləyir,*
*Gəl dayanma burda, get.*

*Zənnimcə, hər şey aydındır. Şair üçün xalqının içində olmaq, ordusunun yanında olmaq onun mənəvi yüksəlişinin təsdiqidir.*

*Malikin ən müxtəlif mövzularda bayatıları çoxdur. Aşiqanə, lirik bayatıları da az deyil. Babək ruhunu tərənnüm edən bayatıları daha çox dinləyicinin hisslərinə, ruhuna hopur. Sanki Malik bu bayatıları ordu qabağında, el içində zil səslə oxuyur. Onun bayatıları qədər kədərli ovqatda olsa da, dinləyicisinə mübarizə əzmi aşılayır.*

*Malik təbiət etibarı ilə, dövrü ilə, zamanla nəfəs alan şairdir. Onun həm poemalarında, həm də bayatılarında, eləcə də lirik şeirlərində zamana kifayət qədər aydın münasibət var".* Ə.Xələflinin düşüncələrinə müdaxilə etmədən təqdim etdim. Malikin poetik hisslərini daha aydın qavramaq üçün bunun əhəmiyyətli olacağını düşündüm.

Kitabda "Həsrətim - Bəzz qalası" poeması da yer almışdır. Poema Malik Əhmədoğlunun Cənubi Azərbaycana səfər edərkən orada Bəzz qalasını - Babək qalasını ziyarət etməklə bağlı müəllifin lirik düşüncələrindən qaynaqlanmış gözəl lirik poemadır. Sonda isə müəllifin son illərdə qələmə aldığı bayatılar təqdim olunmuşdur. Bayatı tez əzbərlənən, mütəhərrik və yadda qalan bir janr olduğuna görə şübhəsiz ki bütün şairlərin də yaradıcılığında yer almışdır. M.Əhmədoğlunun kitabında iri həcmli bir bölməni əhatə edən bayatılar demək olar ki, bütün mövzuları əhatə edir. Ağrı-acı, nakam sevgi, vəfasız dost, qanı düşmən, etibarsızlıq, vətən, hicran bu bayatıların məğzini təşkil edir.

Dəyərli şairimiz M.Əhmədoğluna yeni yaradıcılıq uğurları arzulayıram. İstərdik ki Malik müəllim bundan sonra yurd vüsalına köklənmiş şeir və poemalarla,əsərlərlə könlümüzü xoş eləsin.

***2022***